**"ADA" Universiteti**

*(ali təhsil müəssisəsinin adı)*

**Akkreditasiya qiymətləndirilməsinin nəticəsi olaraq Akkreditasiya Komissiyasının Yekun Hesabatında verdiyi tövsiyə və göstərişlərin icrasına dair**

# FƏALİYYƏT PLANI

**Fəaliyyət planı "ADA" Universiteti**
**Elmi Şurasının**
**(1/11/2024-cü il) tarixli iclasının qərarı ilə**
**təsdiq edilmişdir.**

**Tarix** **19.11.2024**

**İmza** ____________

*(ali təhsil müəssisənin rəhbəri)*

**M.Y** ____________

**Bakı – 2024**

**Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə "ADA" Universitetinin**

(ali təhsil müəssisəsinin adı)

**2023/24-cü tədris ilində nəzərdə tutulmuş tədbirlərə dair illik**

**FƏALİYYƏT PLANI**

| İstiqamət | Tövsiyə | İcra ediləcək fəaliyyət | İcra müddəti (*başlanma və bitmə tarixi*) | İcraya məsul struktur(lar) | Hədəf indikatoru | Nəticə indikatoru | İcra vəziyyəti (*icra olunub, icra olunmayıb, icradadır*) | Fəaliyyətin icrası üçün ayrılan resurs(lar) (*İnsan, maliyyə, infrastruktur və s.*) |
|---|---|---|---|---|---|---|---|---|
| I istiqamət | Hal-hazırda hazırlanmaqda olan 2025-2028-cu illəri əhatə edən Strateji İnkşaf Planının cari ilin sonunadək yekunlaşdırılaraq təsdiq edilməsi | 2025-2028-ci illəri əhatə edən Strateji İnkişaf Planının cari ilin sonunadək yekunlaşdırılarması və müvafiq olaraq təsdiq edilməsi | 2023-cü il sentyabr - 2024-cü il sentyabr | Strategiya və İnkişaf üzrə Prorektorluq | 2025-2028-ci illəri əhatə edəcək yenilənmiş Strateji İnkişaf Planının hazırlanması prosesində müvafiq sənədlərin (aralıq qiymətləndirmə hesabatları, Strateji İnkişaf Planın müvafiq tərkib hissələri) təqdim edilməsi | 2025-2028-ci illəri əhatə edəcək yenilənmiş Strateji İnkişaf Planının hazırlanması prosesinə dair müvafiq sənədlər (aralıq qiymətləndirmə hesabatları, Strateji İnkişaf Planın müvafiq hissələri) | icradadır | Sənədin hazırlanmasında iştirak edəcək məsul şəxslər |
| II istiqamət | “Akademik Keyfiyyət Təminatı Standartları və Təlimatları” sənədinin “ADA”-nın bütün fəaliyyət istiqamətlərini əhatə edən yeni redaktəsinin hazırlanması | “Akademik Keyfiyyət Təminatı Standartları və Təlimatları” sənədinin universitetin akademik fəaliyyətini əhatə edən digər istiqamətləri üzrə işlənilməsi | 2024-2027-ci illər ərzində | Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsi | Universitetin bütün akademik fəaliyyətini əhatə edən Keyfiyyət Təminatı Standartları və Təlimatları sənədinin hazırlanması | “Akademik Keyfiyyət Təminatı Standartları və Təlimatları” sənədinin cari il üçün nəzərdə tutulan hissələrin tərtib edilməsi | icradadır | Sənədin hazırlanmasında iştirak edəcək məsul şəxslər |
| III istiqamət | Universitet sənədlərinin azərbaycan dilində (birinci akkreditasiyasının tövsiyələrində də qeyd edildiyi kimi) hazırlanması | Akademik Kataloqun Azərbaycan dilində hazırlanması | 2023-2024 | Tələbə Qəbulu və Qeydiyyatı şöbəsi | Akademik Kataloqun Azərbaycan dilində hazırlanması | Azərbaycan dilində tərtib edilmiş Akademik Kataloq | icra olunub | Tərcümə işləri üçün maliyyə resursları, sənədlərin tərcüməsinin dəqiqliyinin yoxlanılması üzrə məsul şəxslər |
| III istiqamət | “ADA” universitetinin Karyera xidməti və məzunlarla iş modelinin digər universitetlərə inteqrasiyasında iştirakı | Sözügedən xidmətlərin iş modelinin digər universitetlərdən daxil olan tələbin dəyərləndirilməsi əsasında müzakirələrin aparılması | 2023-2024-cü il | Beynəlxalq Münasibətlər, Hökumətlə Əlaqələr və Tələbələrlə İş üzrə Prorektor, Karyera xidmətləri şöbəsi | 1. Sözügedən istiqamətdə üzrə digər universitetlər ilə təcrübə mübadiləsinin təşkili 2. Ölkədə universitetlərin Karyera xidmətləri mövzusunda təşkil edilən tədbirlərində iştirak | 1. Karyera xidmətləri təcrübəsinin mübadiləsi məqsədilə əməkdaşlıq edilən universitetlərin siyahısı. 2.İştirak edilən tədbirlərin siyahısı | icradadır | Beynəlxalq Münasibətlər, Hökumətlə Əlaqələr və Tələbələrlə İş üzrə Prorektor, Karyera xidmətləri şöbəsinin məsul şəxsləri |
| III istiqamət | Akademik Şikayətlər siyasəti sənədinin sayta yerləşdirilməsi və tələbələr arasında əlçatanlığının təmin edilməsi | Akademik Şikayətlər siyasəti sənədinin universitetin rəsmi saytına yerləşdirilməsi | 2023-2024-cü il | Marketinq və Kommunikasiyalar şöbəsi | Akademik Şikayətlər siyasəti sənədinin vebsaytda yerləşdirilməsi | Akademik Şikayətlər siyasəti sənədinə veb keçid | icra olunub | Vebsaytın işlənilməsi üzrə marketinq şöbəsinin məsul əməkdaşı |
| III istiqamət | “ADA” Universitetinin potensialını nəzərə alaraq, bakalavriat və magistratura təhsil səviyyəsi üzrə tələbələrin mübadilə proqramında iştirakının (həm gələn, həm də gedən) daha da intensivləşdirilməsi | Mübadilə proqramlarının daha da intensivləşdirilməsi üçün keyfiyyətcə uyğun olan yeni əməkdaşlıqları nəzərdən keçirmək; mövcud əməkdaşlıqlar çərçivəsində mübadilə imkanlarını artırmaq; həm mübadilə, həm də Erasmus+ əməkdaşlıqlarını genişləndirilməsi | 2023-2028-ci illər | Qlobal Təbliğat və Əməkdaşlıq şöbəsi | Mübadilə proqramlarında iştirak etmək üçün ayrılan yerlərin sayının artırılması | Mübadilə proqramlarının artım dinamikası | icradadır | Sözügedən istiqamət üzrə məsul şəxslər |
| IV istiqamət | Universitetin missiyasına uyğun olan doktorantura ixtisaslarının təsis edilməsi | Doktorantura ixtisaslarının təsis edilməsi. | 2024-2028-ci illər ərzində | Fakültə dekanlıqları, Dekanlar Şurası və Elmi Şura | Doktorantura proqramlarının təsis edilməsi istiqamətində işlərin aparılması | Təsis edilmiş doktorantura proqramlarının siyahısı | icra olunub | İnfrastruktur, müvafiq maddi-texniki baza, laboratoriyalar |
| V istiqamət | Universitetin rəsmi veb saytının Azərbaycan dilində təşkil edilməsi | Universitetin rəsmi veb saytının Azərbaycan dilində hazırlanması | 2023-2025-ci illər | Marketinq və Kommunikasiyalar şöbəsi | Cari akademik il üçün nəzərdə tutulan hissələrin tərcümə edilməsi | Tərcümə edilmiş sahələrin siyahısı | icra olunub | Vebsaytın işlənilməsi üzrə marketinq, həmçinin informasiya texnologiyaları şöbələrinin məsul əməkdaşları |
| V istiqamət | Təşkilatın institusional yaddaşının qorunub saxlanması istiqamətində işlərin görülməsi | İnstitusional yaddaşının qorunub saxlanması məqsədilə universitetin yeni strategiyasının işlənib hazırlanması, habelə idarəetmə orqanların görüşlərinin protokollarının saxlanılması | 2024-2028-ci illər ərzində | Strategiya və İnkişaf Prorektorluğu və Akademik İşlər üzrə Prorektorluq | Strategiya sənədinin hazırlanması prosesinin həmçinin idarəetmə orqanların görüşlərinin protokolları | Strategiya sənədinin hazırlanması prosesinin, həmçinin idarəetmə orqanların cari akademik il ərzində baş tutmuş görüşlərinin protokolları | icra olunub | Sözügedən istiqamət üzrə məsul şəxslər |
| VII istiqamət | Əcnəbi tələbələrə fərdi yanaşmanın tətbiqi və onların ehtiyaclarını öyrənmək üçün xüsusi sorğuların təşkili | Əcnəbi tələbələr arasında mütəmadi olaraq sorğuların keçirilməsi | 2023-2028-ci illər ərzində | Qlobal Təbliğat və Əməkdaşlıq şöbəsi | Sorğuların təhlili və hesabatı | Cari il ərzində aparılan sorğuların nəticələri | icradadır | Sözügedən istiqamət üzrə məsul şəxslər |
| VII istiqamət | Beynəxalq reytinqlərdə təmsil olunma ilə bağlı görülən işlərin intensivliyinin artırılması | Universitetin mövcud resurslarını nəzərə alaraq beynəlxalq reytinqlərdə təmsil olunma ilə bağlı təhlilin aparılması | 2023-2028-ci illər ərzində | Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsi | İllik əsaslarda beynəlxalq reytinqlərin təhlili proseduru | Cari il üzrə işlərin aparılması məqsədilə Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsi tərəfindən tərtib edilən beynəlxalq reytinqlərin təhlili sənədi | icradadır | Sözügedən istiqamət üzrə məsul şəxslər |